Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi
Kollegiyasının 22 dekabr 2017-ci il tarixli 26-N
nömrəli qərarı ilə təsdiq edilmişdir.

**Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin**
**Probasiya Xidməti haqqında**

**Ə S A S N A M Ə**

## 1. Ümumi müddəalar

1.1. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Probasiya Xidməti (bundan sonra - Xidmət) Azərbaycan Respublikası Ədliyyə Nazirliyi aparatının baş idarə səlahiyyətli müstəqil struktur qurumudur.

1.2. Xidmət öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi haqqında Əsasnamə"ni, Azərbaycan Respublikasının digər normativ hüquqi aktlarını, həmçinin Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin (bundan sonra - Nazirlik) kollegiyasının qərarlarını, Nazirlik üzrə əmr və sərəncamları, habelə bu Əsasnaməni rəhbər tutur və BMT-nin Həbslə bağlı olmayan tədbirlərlə əlaqədar minimal standart qaydalarını (Tokio qaydalarını), Avropa Penitensiar Qaydalarını, Avropa Şurasının "Probasiya qaydaları haqqında" Tövsiyəsini nəzərə alır.

1.3. Xidmət fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlar, hüquq-mühafizə və digər dövlət orqanları ilə əlaqəli həyata keçirir.

1.4. Xidmət fəaliyyətini insan və vətəndaş hüquqları və azadlıqlarına hörmət, qanunçuluq və humanizm prinsipləri əsasında qurur.

1.5. Xidmət müvafiq möhür və ştamplara malikdir.

## 2. Xidmətin fəaliyyət istiqamətləri

2.0. Xidmətin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını təşkil edir;

2.0.2. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;

2.0.3. şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;

2.0.4. cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta

törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil edir;

2.0.5. ictimai işlər növündə inzibati tənbehin icrasını təşkil edir;

2.0.6. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası işini təşkil edir;

2.0.7. qanunvericiliklə müəyyən edilmiş digər istiqamətlərdə fəaliyyət göstərir.

**3. Xidmətin vəzifələri**

3.0. Xidmət bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrasını təşkil etmək üçün tədbirlər görmək;

3.0.2. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək üçün tədbirlər görmək;

3.0.3. şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək üçün tədbirlər görmək;

3.0.4. barəsində məhkəmə hökmü qanuni qüvvəyə minmiş həbsdə olmayan məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrinə göndərilməsini təmin etmək;

3.0.5. cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsini təşkil etmək üçün tədbirlər görmək;

3.0.6. ictimai işlər növündə inzibati tənbehin icrasını təşkil etmək üçün tədbirlər görmək;

3.0.7. üzərində probasiya nəzarəti həyata keçirilən, barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərin qeydiyyatının aparılmasını təmin etmək;

3.0.8. Xidmətin qeydiyyatında olan şəxslərin elektron informasiya sistemini yaratmaq, müvafiq orqan və təşkilatlarla qarşılıqlı məlumat mübadiləsi aparmaq;

3.0.9. Xidmətin qeydiyyatında olan məhkumların ölkədən getmək hüququnun məhdudlaşdırılması və məhdudiyyətlərin götürülməsi işini təşkil etmək;

3.0.10. elektron nəzarət vasitələrinin tətbiqini təşkil etmək;

3.0.11. üzərində probasiya nəzarəti həyata keçirilən məhkumların qanunvericiliklə müəyyən olunmuş üsul və vasitələrlə islahı işini təşkil etmək üçün tədbirlər görmək;

3.0.12. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların və ictimai

işlər növündə inzibati tənbehin icrası və çəkilməsi qayda və şərtlərini təmin etmək üçün tədbirlər görmək;

3.0.13. qanunvericiliklə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla yetkinlik yaşına çatmayan məhkumların cəzalarının icrasını təşkil etmək üçün tədbirlər görmək;

3.0.14. üzərində probasiya nəzarəti həyata keçirilən, barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərlə davranış zamanı onların qeyri-insani və ya ləyaqəti alçaldan rəftara məruz qalmamaq hüququnun və digər hüquqlarının qorunmasını təmin etmək;

3.0.15. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası üzrə fəaliyyəti təmin etmək üçün tədbirlər görmək;

3.0.16. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin sosial adaptasiyasında və reabilitasiyasında iştirak üçün tədbirlər görmək;

3.0.17. üzərində probasiya nəzarəti həyata keçirilən məhkumların olduğu yer müəyyən edilmədikdə, onların axtarılması işini təşkil etmək;

3.0.18. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsini səlahiyyətləri daxilində təmin etmək;

3.0.19. icra məmurlarına (probasiya üzrə) həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün tədbirlər görmək, onların fəaliyyətinə təşkilati və metodik rəhbərliyi həyata keçirmək;

3.0.20. icra məmurlarının (probasiya üzrə) fəaliyyətinə nəzarət etmək, onlar tərəfindən qanunların və digər normativ hüquqi aktların dürüst və eyni qaydada tətbiq olunmasını təmin etmək;

3.0.21. vətəndaşların qəbulunun keçirilməsini, müraciətlərə, o cümlədən icra məmurlarının (probasiya üzrə) qərar və hərəkətlərindən (hərəkətsizliyindən) verilmiş şikayətlərə baxılmasını təmin etmək;

3.0.22. Xidmətin işçilərinin, habelə icra məmurlarının (probasiya üzrə) şəxsi təhlükəsizliyini təmin etmək;

3.0.23. fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda xüsusi vasitələrin və xidməti silahın saxlanılması və istifadəsi qaydalarına riayət olunmasına nəzarətin həyata keçirilməsini təmin etmək;

3.0.24. fəaliyyət istiqamətləri üzrə yerli qurumlar tərəfindən kömək üçün polis və təhlükəsizlik orqanlarına müraciət edilməsini əlaqələndirmək;

3.0.25. fəaliyyət istiqamətlərinə uyğun beynəlxalq təcrübənin öyrənilməsini, onun tətbiqi ilə bağlı müvafiq təkliflərin hazırlanmasını, habelə bu təcrübə nəzərə alınmaqla, elmi-texniki nailiyyətlərin tətbiq olunmasını təmin etmək;

3.0.26. Xidmətdə və fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda kargüzarlıq və arxiv işinin təşkilini təmin etmək;

3.0.27. Xidmətin fəaliyyəti ilə bağlı statistik hesabatların hazırlanmasını, habelə fəaliyyət istiqamətləri üzrə yerli qurumların statistik hesabatlarının toplanmasını, ümumiləşdirilməsini və təhlillər aparılmasını təmin etmək;

3.0.28. fəaliyyət istiqamətlərinə uyğun rəylər verilməsini, təhlillər və ümumiləşdirmələr aparılmasını, müsbət təcrübənin yayılmasını, analitik materiallar hazırlanmasını, müvafiq təkliflər verilməsini təmin etmək;

3.0.29. icra məmurlarının (probasiya üzrə) peşəkarlıq səviyyəsinin yüksəldilməsi, hüquqi biliklərinin artırılması, peşə vərdişlərinə yiyələnməsi və xüsusi hazırlıq keçməsi məqsədi ilə onları müvafiq kurs və treninqlərə cəlb etmək, habelə digər müvafiq tədbirlər görmək;
3.0.30. fəaliyyət istiqamətlərinə uyğun olaraq yeni informasiya və kommunikasiya texnologiyalarının tətbiq edilməsi işinin təşkilini həyata keçirmək;
3.0.31. fəaliyyət istiqamətləri üzrə yerli qurumların maddi-texniki təminatı ilə bağlı tədbirlər görmək;
3.0.32. üzərində probasiya nəzarəti həyata keçirilən məhkumların islah edilməsində ictimaiyyətin iştirakını təmin etmək və cəzaların icrasına ictimai nəzarətin həyata keçirilməsi sahəsində fəaliyyət göstərən qurumlarla əməkdaşlıq etmək;
3.0.33. qeyri-hökumət təşkilatlarının nümayəndələrini, habelə könüllüləri Xidmətin fəaliyyətində iştiraka cəlb etmək;
3.0.34. əfv məsələlərinə baxılması üçün müvafiq sənədlərin hazırlanmasını təmin etmək;
3.0.35. amnistiya və əfv aktlarının icrasını təmin etmək;
3.0.36. fəaliyyət istiqamətləri üzrə icra, icra məmurları haqqında, habelə cəzaların icrası, cinayət-prosessual və inzibati xətalar qanunvericiliyi və digər normativ hüquqi aktlarla nəzərdə tutulmuş vəzifələrin yerinə yetirilməsini təmin etmək;
3.0.37. hüquqi maarifləndirmə işində iştirakı təmin etmək;
3.0.38. fəaliyyət istiqamətləri üzrə və Nazirliyin rəhbərliyinin tapşırıqları əsasında digər vəzifələri yerinə yetirmək.

**4. Xidmətin hüquqları**

4.0. Xidmət öz vəzifələrini həyata keçirmək üçün aşağıdakı hüquqlara malikdir:
4.0.1. fəaliyyət istiqamətləri üzrə icra, icra məmurları haqqında, habelə cəzaların icrası, cinayət-prosessual və inzibati xətalar qanunvericiliyi və digər normativ hüquqi aktlarla müəyyən edilmiş hüquqların həyata keçirilməsini təmin etmək;
4.0.2. Xidmətin qeydiyyatında olan məhkumların qanunsuz olaraq ölkə hüdudlarından kənara çıxmasının qarşısının alınması məqsədi ilə tədbirlər görmək;
4.0.3. icra məmurları (probasiya üzrə) tərəfindən fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq edilməsi hallarını araşdırmaq;
4.0.4. məhkumlara tətbiq edilmiş tənbeh tədbirlərindən verilən şikayətlərə baxmaq, tənbeh tədbirlərini ləğv etmək və ya qüvvədə saxlamaq;
4.0.5. dövlət orqanlarına, dövlət və qeyri-dövlət təşkilatlarına, Nazirliyin sisteminə daxil olan qurumlara müraciət etmək, onlara sorğular vermək və məlumatlar almaq;
4.0.6. fəaliyyət istiqamətlərinə uyğun olaraq Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərin icrası ilə bağlı Azərbaycan Respublikası tərəfindən beynəlxalq təşkilatlara təqdim olunan dövrü hesabatların hazırlanmasında iştirak etmək;
4.0.7. qanunvericiliklə müəyyən edilmiş qaydada qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq etmək;
4.0.8. fəaliyyət istiqamətlərinə aid olan qanunvericilik aktlarının layihələrinə rəy verilməsində iştirak etmək, müvafiq normativ hüquqi aktların layihələrini hazırlamaq;

4.0.9. Xidmətin fəaliyyətini tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflərin hazırlanmasında iştirak etmək;

4.0.10. fəaliyyət istiqamətləri üzrə yerli qurumlara normativ hüquqi aktlarla işin təşkilində əməli və metodik köməklik göstərmək, zəruri hallarda yazılı göstərişlər vermək;

4.0.11. fəaliyyət istiqamətləri üzrə yerli qurumlara onların fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədi ilə metodik tövsiyələr hazırlamaq;

4.0.12. Xidmət işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, hüquqi biliklərinin artırılması, peşə vərdişlərinə yiyələnməsi və xüsusi hazırlıq keçməsi məqsədi ilə onları müvafiq kurs və treninqlərə cəlb etmək, digər müvafiq tədbirlər görmək;

4.0.13. fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda statistikanın aparılması, kargüzarlığın və arxiv işinin təşkil edilməsi, icra və əmək intizamına riayət olunması vəziyyətini yoxlamaq;

4.0.14. fəaliyyət istiqamətləri üzrə yerli qurumların işini öyrənməklə müsbət təcrübəni yaymaq;

4.0.15. fəaliyyət istiqamətlərinə uyğun olaraq həyata keçirilən işin təkmilləşdirilməsinə dair təkliflər vermək;

4.0.16. verilmiş səlahiyyət daxilində kadr işini həyata keçirmək;

4.0.17. vəzifələrinin icrası ilə əlaqədar digər hüquqları həyata keçirmək.

## 5. Xidmətin fəaliyyətinin təşkili

5.1. Xidmətin strukturu və ştat vahidlərinin sayı Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən təsdiq olunur.

5.2. Xidmətin strukturuna Elektron monitorinq şöbəsi daxildir. Xidmət bu struktur qurum vasitəsilə elektron nəzarət sisteminin təşkilini və idarə olunmasını həyata keçirir, həmçinin elektron nəzarət vasitələri tətbiq olunan məhkumlar tərəfindən onların üzərinə qoyulan vəzifələrə riayət edilməsinin monitorinqini həyata keçirir, bu vəzifələrin pozulması halları aşkar edildikdə müvafiq tədbirlər görür.

5.3. Xidmətə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən rəis rəhbərlik edir. Rəis Xidmətə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi və hüquqların həyata keçirilməsi üçün şəxsən məsuliyyət daşıyır.

5.4. Xidmət rəisinin Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Xidmətin rəis müavini ona həvalə edilmiş vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

5.5. Xidmətin Elektron monitorinq şöbəsinə Azərbaycan Respublikasının ədliyyə naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad olunan rəis rəhbərlik edir.

5.6. Xidmətin rəis müavini və işçiləri öz funksiyalarını vəzifə və iş bölgüsünə əsasən yerinə yetirirlər.

5.7. Xidmətin işi fəaliyyət istiqamətləri üzrə, habelə Nazirliyin və Xidmətin iş planları əsasında həyata keçirilir.

5.8. Xidmətdə, onun fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda işin təşkili və vəziyyəti, qarşıda duran vəzifələr mütəmadi olaraq əməliyyat müşavirəsində müzakirə edilir.

**5.9. Xidmət rəisi:**

5.9.1. Xidmətin işini təşkil edir və onun fəaliyyətinə rəhbərliyi və nəzarəti həyata keçirir;

5.9.2. Xidmətin işçiləri arasında vəzifə və iş bölgüsü aparır;

5.9.3. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumların fəaliyyətinə nəzarəti təşkil edir və onların işinin əlaqələndirilməsinə nəzarət edir;

5.9.4. Xidmətin işçiləri tərəfindən vəzifələrinin yerinə yetirilməsinə, icra və əmək intizamına nəzarət edir;

5.9.5. Xidmətin iş planını təsdiq edir, onun vaxtında və keyfiyyətli icrasına nəzarəti həyata keçirir, səlahiyyətlərinə aid edilmiş məsələlər üzrə yoxlamaların keçirilməsi planını təsdiq olunmaq üçün Nazirliyin rəhbərliyinə təqdim edir;

5.9.6. Xidmətin fəaliyyətini Nazirliyin sisteminə daxil olan qurumlarla əlaqələndirir;

5.9.7. Xidmətin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması üçün təşəbbüs göstərir, bu məsələlərin kollegiyanın müzakirəsinə hazırlanmasını təmin edir;

5.9.8. Nazirliyin iş planında və kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini təmin edir;

5.9.9. Xidmətin fəaliyyətinin, habelə Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumların fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə və işçilərin iş şəraitinin yaxşılaşdırılması məqsədi ilə Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.10. elektron nəzarət vasitələrinin tətbiqi ilə bağlı fəaliyyətə nəzarət edir;

5.9.11. üzərində probasiya nəzarəti həyata keçirilən, barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərin qeydiyyatı işinə və bu sahədə yaradılmış elektron informasiya sisteminin fəaliyyətinin təşkilinə nəzarət edir;

5.9.12. Xidmətin qeydiyyatında olan şəxslərlə bağlı müvafiq orqan və təşkilatlarla qarşılıqlı məlumat mübadiləsi aparılmasına nəzarəti həyata keçirir;

5.9.13. Xidmətə işə yeni qəbul edilmiş işçiləri təcrübəli əməkdaşlara təhkim edir və onların işinə bilavasitə nəzarət edir;

5.9.14. Xidmətdə və Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda işçilərin vəzifəyə təyin və vəzifədən azad edilməsi, həvəsləndirilməsi, onlara xüsusi rütbə və ixtisas dərəcələrinin verilməsi, intizam tənbeh tədbirlərinin tətbiq edilməsi və vəzifədən kənarlaşdırılması ilə bağlı Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.15. verilmiş səlahiyyət daxilində kadr işinin həyata keçirilməsi üçün tədbirlər görür;

5.9.16. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda vakant olan inzibati vəzifələrin icrasının müvəqqəti olaraq başqa şəxslərə həvalə edilməsi haqqında Nazirliyin rəhbərliyinə təkliflər verir;

5.9.17. Xidmətin işçiləri üçün icrası məcburi olan əmr, sərəncam və yazılı göstərişlər verir, onların icrasını təşkil edir və icrasına nəzarəti həyata keçirir;

5.9.18. Xidmətin işçilərinin, habelə icra məmurlarının (probasiya üzrə) şəxsi təhlükəsizliyi üzrə müvafiq tədbirlər görür;

5.9.19. Xidmətin qeydiyyatında olan cəzanın icrasından boyun qaçıran məhkumlar barədə yerli qurumlardan məhkəməyə təqdim ediləcək materiallara baxır və onların əsaslılığını yoxlayır;

5.9.20. məhkumlara tətbiq edilmiş tənbeh tədbirlərindən verilən şikayətlərə baxır, tənbeh tədbirlərini ləğv edir və ya qüvvədə saxlayır;

5.9.21. korrupsiyaya qarşı mübarizə sahəsində tədbirlər görür;

5.9.22. qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, habelə könüllülərin Xidmətin fəaliyyətində iştirakı ilə bağlı işin koordinasiyasını həyata keçirir;

5.9.23. qanunvericiliyə uyğun olaraq dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün tədbirlər görür;

5.9.24. amnistiya və əfv aktlarının icrasını təşkil edir;

5.9.25. səlahiyyətlərinin bir hissəsinin həyata keçirilməsini müavininə tapşırır;

5.9.26. vətəndaşları qəbul edir;

5.9.27. xidməti zərurətlə əlaqədar bu Əsasnamə ilə Xidmətin rəis müavininə həvalə edilmiş vəzifələrin icrasını öz üzərinə götürür;

5.9.28. xidməti fəaliyyətlə bağlı Nazirliyin rəhbərliyinin tapşırıqlarını yerinə yetirir;

5.9.29. Xidmətin fəaliyət istiqamətlərinə uyğun digər məsələləri həll edir.

**5.10. Xidmətin rəis müavini:**

5.10.1. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumların işinin əlaqələndirilməsini təmin edir;

5.10.2. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrası ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.3. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.4. şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.5. barəsində məhkəmə hökmü qanuni qüvvəyə minmiş həbsdə olmayan məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrinə göndərilməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.6. cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.7. ictimai işlər növündə inzibati tənbehin icrası ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.8. üzərində probasiya nəzarəti həyata keçirilən, barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərin qeydiyyatının aparılması işini və bu sahədə yaradılmış elektron informasiya sisteminin fəaliyyətini təşkil edir;

5.10.9. Xidmətin qeydiyyatında olan şəxslərlə bağlı müvafiq orqan və təşkilatlarla qarşılıqlı məlumat mübadiləsinin aparılması işini təşkil edir;

5.10.10. Xidmətin qeydiyyatında olan məhkumların ölkədən getmək hüququnun məhdudlaşdırılması və məhdudiyyətlərin götürülməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.10.11. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların, ictimai işlər növündə inzibati tənbehin icrası və çəkilməsi qayda və şərtlərinin təmini üzrə fəaliyyəti təşkil edir;

5.10.12. qanunvericiliklə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla yetkinlik yaşına çatmayan məhkumların cəzalarının icrasını təşkil edir;

5.10.13. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası üzrə fəaliyyəti təşkil edir;

5.10.14. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin sosial adaptasiyasında və reabilitasiyasında iştirakla bağlı fəaliyyəti təşkil edir;

5.10.15. Xidmətin işçilərini cəlb etməklə ümumiləşdirmələr aparır, statistik və digər hesabatları, iş planının layihəsini hazırlayaraq Xidmət rəisinə təqdim edir;

5.10.16. Xidmətin iş planının vaxtında və keyfiyyətli icrasını təşkil edir;

5.10.17. Xidmətin fəaliyyəti ilə bağlı məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

5.10.18. Xidmətin kargüzarlıq işini təşkil edir;

5.10.19. Xidmətin işçilərinin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, hüquqi biliklərinin artırılması, peşə vərdişlərinə yiyələnməsi və xüsusi hazırlıq keçməsi məqsədi ilə onların müvafiq kurs və treninqlərə cəlb edilməsi, habelə digər müvafiq tədbirlər görülməsi barədə Xidmət rəisinə təkliflər verir;

5.10.20. stajorların və sınaq keçmə müddətində olan şəxslərin fəaliyyətini təşkil edir və onların işinə rəhbərlik edir;

5.10.21. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumların maddi-texniki təminatı ilə bağlı Xidmət rəisinə təkliflər verir;

5.10.22. vətəndaşların qəbulunda iştirak edir;

5.10.23. Xidmət rəisi vəzifələrini icra edə bilmədikdə onun vəzifələrini icra edir;

5.10.24. Xidmətin fəaliyyətinin təkmilləşdirilməsi üzrə Xidmət rəisinə təkliflər verir;

5.10.25. ona tapşırılmış sahədə işin düzgün təşkil və icra edilməsini təmin edir;

5.10.26. peşə hazırlığının yüksəldilməsi məqsədi ilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.10.27. qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, habelə könüllülərinin Xidmətin fəaliyyətində iştirakı ilə bağlı işi təşkil edir;

5.10.28. xidməti fəaliyyətlə əlaqədar Nazirliyin rəhbərliyinin və Xidmət rəisinin tapşırıqlarını yerinə yetirir.

**5.11. Elektron monitorinq şöbəsinin rəisi:**

5.11.1. şöbənin işini təşkil edir və fəaliyyətinə rəhbərliyi həyata keçirir;

5.11.2. Xidmətin rəisi ilə razılaşdırmaqla şöbənin işçiləri arasında iş bölgüsünü aparır;

5.11.3. şöbədə işçilərin fəaliyyətini istiqamətləndirir, onlara həvalə edilən vəzifələrin yerinə yetirilməsini, əmək və icra intizamını təmin edir;

5.11.4. elektron nəzarət sisteminin təşkili, idarə edilməsi və inkişafının təmin olunmasına nəzarət edir;

5.11.5. elektron nəzarət vasitələrinin yerli qurumlar tərəfindən qanunvericiliyə uyğun tətbiqinə nəzarət edir;

5.11.6. şöbədə və yerli qurumlarda mövcud olan texniki proqram kompleksinin və rabitə infrastrukturunun işlək vəziyyətdə saxlanılmasına və onun təkmilləşdirilməsi işinə nəzarət edir;

5.11.7. elektron nəzarət sisteminə texniki xidmətin göstərilməsini təşkil edir;

5.11.8. elektron nəzarət vasitələrinin aktivləşdirilməsi və aktivsizləşdirilməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.11.9. elektron nəzarət vasitələrinin tətbiq olunduğu məhkumların izlənilməsi, nəzarətdə saxlanılması, nəzarət subyektləri tərəfindən onların üzərinə qoyulan vəzifələrin pozulması halları aşkar edildikdə, onların aradan qaldırılması, habelə izləmə sessiyasının bağlanılması ilə bağlı fəaliyyəti təşkil edir;

5.11.10. elektron nəzarət vasitələrinin istifadəsi ilə bağlı aparılan izləmə məlumatlarının qəbulu, emalı, saxlanılması, idarə edilməsi və ötürülməsi, həmçinin elektron nəzarət vasitələri tətbiq olunan məhkumlarla operativ əlaqənin təmin edilməsi ilə bağlı fəaliyyəti təşkil edir;

5.11.11. elektron nəzarət vasitələrinin tətbiq olunduğu məhkumların izlənilməsinin mümkünsüz olması barədə xəbərdarlıq siqnalı daxil olduqda, bu haqda təxirə salınmadan Xidmət rəisinin məlumatlandırılmasını təmin edir;

5.11.12. Nazirliyin kollegiyasının qərarlarında, Nazirlik üzrə əmr və sərəncamlarda, habelə iş planlarında nəzərdə tutulmuş aidiyyəti tədbirlərin yerinə yetirilməsini səlahiyyətləri daxilində təmin edir;

5.11.13. şöbənin fəaliyyəti ilə bağlı məsələlərin Nazirliyin kollegiyasının müzakirəsinə çıxarılması barədə Xidmət rəisinə təklif verir, Xidmətin fəaliyyəti ilə bağlı aidiyyəti məsələləri Nazirliyin kollegiyasının müzakirəsinə hazırlayır;

5.11.14. şöbənin müvafiq hesabatlarını Xidmət rəisinə təqdim edir;

5.11.15. şöbənin fəaliyyətinin təkmilləşdirilməsi sahəsində tədbirlər görür, bu barədə Xidmət rəisinə təkliflər verir;

5.11.16. Xidmətin iş planına dair təkliflər verir, onun icrasını təmin edir;

5.11.17. işçilərin peşə hazırlığının yüksəldilməsi məqsədi ilə tədbirlər görür;

5.11.18. peşə hazırlığının yüksəldilməsi məqsədi ilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır;

5.11.19. xidməti fəaliyyətlə bağlı Nazirliyin və Xidmətin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.

**5.12. Xidmətin Elektron monitorinq şöbəsinə daxil olmayan baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi və məsləhətçi:**

5.12.1. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların icrası ilə bağlı fəaliyyətin təşkili üzrə işləri aparır;

5.12.2. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzalara məhkum edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı fəaliyyətin təşkili üzrə işləri aparır;

5.12.3. şərti məhkum edilmiş, cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş və ya məhkəmə tərəfindən cəzasının çəkilməsi təxirə salınmış şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı fəaliyyətin təşkili üzrə işləri aparır;

5.12.4. barəsində məhkəmə hökmü qanuni qüvvəyə minmiş həbsdə olmayan məhkumların məntəqə tipli cəzaçəkmə müəssisələrinə göndərilməsi ilə bağlı fəaliyyətin təşkili üzrə işləri aparır;

5.12.5. cinayət törətmiş və alkoqolizm və ya narkomaniyadan müalicə məqsədi ilə barəsində tibbi xarakterli məcburi tədbirlər təyin edilmiş (cəzaçəkmə müəssisələrində cəza çəkən məhkumlar istisna olmaqla), habelə inzibati həbs nəzərdə tutan inzibati xəta törətmiş və barəsində narkomaniyadan məcburi müalicə təyin edilmiş şəxslər üzərində probasiya nəzarətinin həyata keçirilməsi ilə bağlı fəaliyyətin təşkili üzrə işləri aparır;

5.12.6. ictimai işlər növündə inzibati tənbehin icrası ilə bağlı fəaliyyətin təşkili üzrə işləri aparır;

5.12.7. üzərində probasiya nəzarəti həyata keçirilən, barəsində ictimai işlər növündə inzibati tənbeh tətbiq edilən şəxslərin qeydiyyatı ilə bağlı işlər aparır;

5.12.8. Xidmətin qeydiyyatında olan şəxslərlə bağlı müvafiq orqan və təşkilatlarla qarşılıqlı məlumat mübadiləsi işini aparır;

5.12.9. Xidmətin qeydiyyatında olan məhkumların ölkədən getmək hüququnun məhdudlaşdırılması və məhdudiyyətlərin götürülməsi ilə bağlı işləri aparır;

5.12.10. cərimə, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə, müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, ictimai işlər, islah işləri, azadlığın məhdudlaşdırılması növündə cəzaların və ictimai işlər növündə inzibati tənbehin icrası və çəkilməsi qayda və şərtlərinin təmini üzrə işləri aparır;

5.12.11. qanunvericiliklə müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla yetkinlik yaşına çatmayan məhkumların cəzalarının icrasının təşkili üzrə işləri aparır;

5.12.12. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin profilaktikası üzrə fəaliyyəti təmin etmək üçün işlər aparır;

5.12.13. üzərində probasiya nəzarəti həyata keçirilən şəxslərin sosial adaptasiyasında və reabilitasiyasında iştirakın təşkili üzrə işləri aparır;

5.12.14. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrin həyata keçirilməsinin Xidmətin səlahiyyətləri daxilində təmin edilməsi üzrə işləri aparır;

5.12.15. icra məmurlarına (probasiya üzrə) həvalə olunmuş vəzifələrin yerinə yetirilməsi üçün tədbirlər barədə təkliflər hazırlayır, bu tədbirlərin həyata keçirilməsində iştirak edir;

5.12.16. Xidmətin fəaliyyət istiqamətləri ilə bağlı qanunvericiliyin tələblərini pozan şəxslərin məsuliyyətə cəlb olunması barədə yerli qurumlardan daxil olan təqdimatları və ona əlavə edilmiş materialları öyrənərək Xidmətin rəhbərliyinə rəy təqdim edir;

5.12.17. müraciətlərə, o cümlədən icra məmurlarının (probasiya üzrə) qərar və hərəkətlərindən (hərəkətsizliyindən) verilmiş şikayətlərə baxır və müvafiq tədbirlər görülməsi üçün təkliflər verir;

5.12.18. Xidmətin işçilərinin, habelə icra məmurlarının (probasiya üzrə) şəxsi təhlükəsizliyi üzrə tədbirlər barədə təkliflər hazırlayır;

5.12.19. icra məmurları (probasiya üzrə) tərəfindən fiziki güc, xüsusi vasitə və xidməti silah tətbiq edilməsi hallarını araşdırır;

5.12.20. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlar tərəfindən kömək üçün polis və təhlükəsizlik orqanlarına müraciət edilməsinin əlaqələndirilməsi üzrə işləri aparır;

5.12.21. Xidmətin fəaliyyət istiqamətlərinə aid olan qanunvericilik aktlarının layihələrinə dair rəylər tərtib edir, müvafiq normativ hüquqi aktların layihələrini hazırlayır;

5.12.22. icra məmurlarının (probasiya üzrə) fəaliyyətini tənzimləyən normativ hüquqi aktların yeni qəbul olunmuş qanunvericiliyə uyğunlaşdırılması barədə təkliflər hazırlayır;

5.12.23. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlara normativ hüquqi aktlarla işin təşkilində köməklik göstərilməsində iştirak edir;

5.12.24. fəaliyyət istiqamətlərinə uyğun beynəlxalq təcrübəni öyrənir, onun tətbiqi ilə bağlı müvafiq təkliflər hazırlayır;

5.12.25. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlara onların fəaliyyətlərinin təkmilləşdirilməsi məqsədi ilə metodik tövsiyələr hazırlayır;

5.12.26. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda kargüzarlıq və arxiv işinin təşkilinin təmin edilməsi üzrə işləri aparır;

5.12.27. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumların statistik hesabatlarını toplayır, ümumiləşdirmələr və təhlillər aparır;

5.12.28. Xidmətin fəaliyyət istiqamətlərinə uyğun rəylər tərtib edir, təhlillər və ümumiləşdirmələr aparır, müsbət təcrübənin yayılması üçün təkliflər verir, analitik materiallar və müvafiq təkliflər hazırlayır;

5.12.29. stajorlar və sınaq keçmə müddətində olan şəxslərlə iş aparır, xidməti fəaliyyətlə əlaqədar onlar tərəfindən tapşırıqların və tövsiyələrin yerinə yetirilməsinə nəzarət edir;

5.12.30. Xidmət rəisi tərəfindən aparılan ərazi bölgüsünə uyğun olaraq Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda müvafiq qanunvericiliyin tələblərindən irəli gələn vəzifələrin icra məmurları (probasiya üzrə) tərəfindən yerinə yetirilməsinə nəzarət edir;

5.12.31. Xidmətin fəaliyyət istiqamətləri üzrə yerli qurumlarda statistikanın aparılması, kargüzarlığın və arxiv işinin təşkil edilməsi, icra və əmək intizamına riayət olunması vəziyyətinin yoxlanılmasında iştirak edir;

5.12.32. hüquqi maarifləndirmə işinin aparılmasında iştirak edir;

5.12.33. peşə hazırlığının yüksəldilməsi məqsədi ilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrinin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

5.12.34. qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, habelə könüllülərinin Xidmətin fəaliyyətində iştirakı ilə bağlı işləri aparırlar;

5.12.35. xidməti fəaliyyətlə bağlı Xidmətin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.

**5.13. Xidmətin Elektron monitorinq şöbəsinə daxil olan baş məsləhətçi, böyük məsləhətçi, aparıcı məsləhətçi və məsləhətçi:**

5.13.1. elektron nəzarət sisteminin təşkili, idarə edilməsi və inkişafının təmin olunması üçün işlər aparır;

5.13.2. şöbədə və yerli qurumlarda mövcud olan texniki proqram kompleksinin və rabitə infrastrukturunun işlək vəziyyətdə saxlanılması və onun təkmilləşdirilməsi üçün işlər aparır;

5.13.3. elektron nəzarət vasitələrinin yerli qurumlar tərəfindən qanunvericiliyə uyğun tətbiqi ilə bağlı işlər aparır;

5.13.4. elektron nəzarət sisteminə texniki xidmətin göstərilməsi üçün işlər aparır;

5.13.5. elektron nəzarət vasitələrinin aktivləşdirilməsi və aktivsizləşdirilməsi ilə bağlı işlər aparır;

5.13.6. elektron nəzarət vasitələrinin tətbiq olunduğu məhkumların izlənilməsi, nəzarətdə saxlanılması, nəzarət subyektləri tərəfindən onların üzərinə qoyulan vəzifələrin pozulması halları aşkar edildikdə, onların aradan qaldırılması, habelə izləmə sessiyasının bağlanılması ilə bağlı işlər aparır;

5.13.7. elektron nəzarət vasitələrinin istifadəsi ilə bağlı aparılan izləmə məlumatlarının qəbulu, emalı, saxlanılması, idarə edilməsi və ötürülməsi, həmçinin elektron nəzarət vasitələri tətbiq olunan məhkumlarla operativ əlaqənin təmin edilməsi ilə bağlı işlər aparır;

5.13.8. elektron nəzarət vasitələrinin tətbiq olunduğu məhkumların izlənilməsinin mümkünsüz olması barədə xəbərdarlıq siqnalı daxil olduqda, bu haqda təxirə salınmadan Elektron monitorinq şöbəsinin rəisinin məlumatlandırılmasını təmin edir;

5.13.9. peşə hazırlığının yüksəldilməsi məqsədi ilə qanunvericiliyi daim öyrənir, işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrinin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

5.13.10. xidməti fəaliyyətlə bağlı Xidmətin rəhbərliyinin və Elektron monitorinq şöbəsinin rəisinin digər tapşırıqlarını yerinə yetirir.

**5.14. Baş mütəxəssis (böyük inspektor), böyük mütəxəssis (inspektor):**

5.14.1. daxil olan sənədləri və müraciətləri Nazirliyin Katibliyindən götürür və onların qeydiyyatını aparır;

5.14.2. daxil olan sənədləri Xidmətin rəhbərliyinə təqdim edir, müvafiq dərkənara əsasən sənədləri icraçılara təqdim edir;

5.14.3. sənədlərin qanunvericiliklə nəzərdə tutulmuş müddətlərdə icra olunmasını nəzarətdə saxlayır, onların icra müddətinin gözlənilməsi ilə bağlı Xidmətin rəhbərliyinə məlumat təqdim edir;

5.14.4. sənədlərin işçilər tərəfindən icra edilməsinin qeydiyyatını aparır, göndərilməsi üçün Nazirliyin Katibliyinə təqdim edir;

5.14.5. icra olunmuş sənədlərin səliqə ilə işə tikilməsini və Xidmətin dəftərxanasında saxlanılmasını təmin edir;

5.14.6. hüquqi şəxslərin və vətəndaşların müraciətlərini ümumiləşdirir, Xidmətin hər bir işçisinin icraatına daxil olan sənədlərin hesabatlarını toplayıb Xidmətin rəhbərliyinə təqdim edir;

5.14.7. Xidmət rəisinin əmr, sərəncam və yazılı göstərişlərinin qeydiyyatını aparır, onların müvafiq struktur qurumlara çatdırılmasını təmin edir;

5.14.8. işgüzar və peşə keyfiyyətlərinin yüksəldilməsinə çalışır, əmək və icra intizamına əməl edir, vəzifələrinin vaxtında və düzgün icra edilməsinə görə məsuliyyət daşıyır;

5.14.9. xidməti fəaliyyətlə bağlı Xidmətin rəhbərliyinin digər tapşırıqlarını yerinə yetirir.